**Ayaz Vəfalı**

**Yaz gələndə**

Yaz gələndə
        axşam üstü
Həyətdə od qalayardıq;
Burulardı qara tüstü –
Kənddə hay-küy salardıq.
        Deyərdik ki, səhərəcən
        Od üstündən atılaq;
        Deyərdilər: uşaqda sən
        Həvəsə bax, sözə bax!
Qada-bala, azar-bezar
Qatılardı alova;
Canımızda nə ağrı var –
Tutulardı alova.
        Ocağmız sönməyincə -
        Kəsilməzdi səsimiz;
        Evdəkilər dinməyincə -
        Qayıtmazdıq evə biz.
...Neçə-neçə elə bahar
Gəldi keçdi ömürdən;
Aman ellər, nə sirri var, -
Unutmadım onu mən?
        Deməyin ki, əylənmişik,
        Duymamışıq heç nəyi;
        Bəlkə onda öyrənmişik –
        Od içindən keçməyi?..

**Vəfalı A. Bəlkə onda öyrənmişik : şeir // Azərbaycanda Novruz. – Bakı : Çıraq, 2012. – S. 268. – Şeir ilk dəfə "Ədəbiyyat və incəsənət" qəzetinin 25 dekabr 1965-ci il tarixli sayında dərc olunmuşdur.**